**Texniki Şərtlər**
**BMT-nin beynəlxalq insan hüquqları müqavilələrinin icrasına dair alternativ hesabatların hazırlanması üzrə məsləhətçi xidməti**

**Təşkilat:** **BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı**
**Son müraciət tarixi:** **17 mart 2024-cü il**
**Xidmətin müddəti:** **Elanda nəzərdə tutulan bütün fəaliyyətlər 15 iyun 2024-cü il tarixinədək tamamlanmalıdır.**

**Ərizələr unic-baku@un.org elektron poçt ünvanına göndərilməlidir.**

**Ümumi məlumat**

BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı (BMT İHAK) BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumlarından birinə alternativ hesabatların hazırlanması və təqdim edilməsi sahəsində milli məsləhətçilər üçün elan verir. Hesabat müvafiq BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumunun hesabat qaydlarına və ölkələr üzrə baxış təqviminə uyğun hazırlanmalıdır.

Elana BMT-nin beynəlxalq insan hüquqları müqavilələrinin tövsiyələrinin icrasının monitorinqi sahəsində təcrübəyə sahib milli vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) və hüquq cəmiyyətinin nümayəndələri müraciət edə bilər.

Alternativ hesabatlar müvafiq beynəlxalq insan hüquqları müqaviləsində təsbiq edilmiş hüquq və azadlıqlarla bağlı olmalı, o cümlədən müvafiq hüquqlara çatımlılıq və onların icra statusu haqqında məlumat verməli, həmin hüquqların icrası istiqamətində atılmalı olan addımlara dair tövsiyələri əhatə etməlidir. Alternativ hesabat spesifik olmalı, etibarlı və obyektiv məlumata əsaslanmalı, o cümlədən tələb olunduqda milli hesabatlardan öncə qəbul edilmiş məsələlərin siyahısına uyğun gəlməlidir.

Namizədlər hesabatın hazırlanması üçün Azərbaycan üzrə yaxın gələcəkdə baxışın keçirilməsi nəzərdə tutulan müvafiq beynəlxalq insan hüquqları müqaviləsini seçməlidir. BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumlarının təqviminə əsasən, Azərbaycan üzrə yaxın gələcəkdə baş tutması gözlənilən baxışlara daxildir: BMT-nin İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsi (Azərbaycan üzrə beşinci dövri icmal); BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsi (Azərbaycan üzrə yeddinci dövri icmal); BMT-nin Bütün əməkçi miqrantların hüquqlarının müdafiəsi Komitəsi (Azərbaycan üzrə dördüncü dövri baxış).[1]

Bu fəaliyyət Avropa İttifaqının maliyyə dəstəyilə BMT İHAK tərəfindən həyata keçirilən "Azərbaycanda Həssas Qrupların Hüquqlarının Müdafiəsi" layihəsi çərçivəsində həyata keçirilir.

[1] BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumlarının təqvimini izləmək üçün: https://tbinternet.ohchr.org/_layouts/15/TreatyBodyExternal/MasterCalendar.aspx?Type=Session&Lang=En;
BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumlarına dair ətraflı məlumat əldə etmək üçün: https://azerbaijan.un.org/sites/default/files/2020-07/Birl%C9%99%C5%9Fmi%C5%9F-Mill%C9%99tl%C9%99r-T%C9%99%C5%9Fkilat%C4%B1n%C4%B1n-insan-h%C3%BCquqlar%C4%B1n%C4%B1n-m%C3%BCdafi%C9%99si-mexanizml%C9%99ri.pdf

Layihənin əsas məqsədlərindən biri vətəndaş cəmiyyətinin BMT-nin insan hüquqları mexanizmlərindən istifadə etməklə insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində iştirakını dəstəkləməkdir.

**Məqsəd**

Milli vətəndaş cəmiyyəti nümayəndələri və hüquq cəmiyyətinin nümayəndələrinin BMT-nin insan hüquqları mexanizmlərindən istifadə etməklə insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində iştirakının dəstəklənməsi.

**İşin əhatə dairəsi (Həyata keçirilməli olan tapşırıqlar)**

- BMT-nin insan hüquqları sahəsində beynəlxalq müqavilələrdən birinin icra vəziyyətinin qiymətləndirilməsinin aparılması;
- BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumlarından biri tərəfindən Azərbaycan üzrə qəbul edilmiş Yekun Müşahidələr və tövsiyələrin icra vəziyyətinə dair alternativ hesabatın hazırlanması;
- Alternativ hesabatların hazırlanması üçün zəruri fəaliyyətlərin həyata keçirilməsi. Buraya məlumatın toplanması, qanunvericiliyin təhlilinin aparılması, hesabata daxil ediləcək əsas məsələlərin müəyyən edilməsi, tövsiyələrin hazırlanması, o cümlədən sorğuların keçirilməsi və digər müvafiq fəaliyyətlər daxildir;
- Alternativ hesabatın BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumlarının təqvimi əsasında seçilmiş Müqavilə Qurumuna təqdim edilməsi;
- Məsləhət xidmətinin tamamlanmasına dair hesabatın hazırlanması və BMT İHAK-a təqdim edilməsi. Bu hesabat BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumlarının ölkələr üzrə baxış təqviminə əsasən alternativ hesabat müvafiq quruma təqdim edildikdən sonra, və yaxud təqdim edilməyə hazır olduqda təqdim edilməlidir.

**Müraciət üçün meyarlar**

Maraqlı şəxslər elana müraciət etmək üçün aşağıda göstərilən meyarlara cavab verməlidir:

- Elana **yalnız milli vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri və hüquq cəmiyyətinin nümayəndələri** müraciət edə bilərlər;
- Müraciət edən şəxslər milli qanunvericiliyə uyğun şəkildə vergi ödəyicisinin eyniləşdirmə nömrəsinə (VÖEN) sahib olmalıdır.

Bundan əlavə, ilkin mərhələdə seçilmiş namizədlərdən BMT-nin insan resursları portalı olan İnspira (https://inspira.un.org) portalında qeydiyyatdan keçmələri və məsləhətçi xidmətinə həmin portalda müraciət etmələri tələb ediləcək. İlkin mərhələdə seçilmiş, lakin İnspira'da müraciətini tamamlamayan namizədlərlə müqavilə bağlanılmayacaq.

**Təqdim edilməli olan nəticələr**

- Alternativ hesabatın hazırlanması, yekunlaşdırılması və BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumlarının təqvimi əsasında seçilmiş Müqavilə Qurumuna təqdim edilməsi. Məsləhət xidməti müddətində BMT-nin Müqavilə Qurumları tərəfindən alternativ hesabatların təqdim edilməsi üçün heç

bir elan verilmədikdə, məsləhətçilərdən hər bir halda hazırladıqları hesabatları seçmiş olduqları Müqavilə Qurumlarına təqdim etmələri tələb olunur. Bu halda, BMT-nin Müqavilə Qurumu hesabatların qəbulu üçün elan verdikdən sonra həmin quruma yenilənmiş yazılı məlumat təqdim edilməli olacaq;

- Xidmət tamamlandıqdan sonra görülmüş işlərə dair yekun hesabatın BMT İHAK-a təqdim edilməsi.

**Minimum təcrübə tələbləri**

- İnsan hüquqları və qanunun aliliyi sahəsində təcrübə (İnsan hüquqlarının təşviqinə yönəlmiş vətəndaş cəmiyyəti təşəbbüslərində iştirak);
- Mülki və siyasi, və yaxud iqtisadi, sosial və mədəni hüquqlar, habelə BMT-nin insan hüquqları mexanizmləri sahəsində bilik və məlumatlılığın olması;
- Tədqiqat, monitorinq və hesabatların hazırlanması sahəsində təcrübənin olması.

**Müraciətlərin təqdim edilməsi**

Müraciət etmək üçün meyarlara cavab verən namizədlər ilkin mərhələdə aşağıdakı məlumatı təqdim etməlidir:

1. Maraq Məktubu (Letter of Interest): İşin Əhatə Dairəsi bölməsində qeyd edilmiş tapşırıqlara uyğun olaraq görüləcək işləri təsvir edən Maraq Məktubu təqdim edilməlidir. Maraq Məktubunda namizədlər həmçinin hesabatı hazırlayacaqları BMT-nin İnsan Hüquqları üzrə Müqavilə Qurumunun adını qeyd etməli, hesabatın yazılma məqsədini və hesabatda əhatə olunacaq məsələləri qısa şəkildə qeyd etməlidir.
2. CV və yaxud namizədin təcrübəsinin xülasəsi: CV-də elanın tələblərinə uyğun gələn təcrübəyə və məlumata üstünlük verilməsi məsləhət görülür.

Qeyd edilən məlumatın təqdim edilməsi üçün son tarix **17 mart** 2024-cü ildir. Namizədlər məlumatı elektron poçt vasitəsilə aşağıda qeyd edilən ünvana göndərməlidir:

**unic-baku@un.org**

Namizədlər qeyd edilən ünvana məlumatı göndərərkən elektron poçtun mövzu (Subject) hissəsində **"BMT İHAK Məsləhətçi"** yazmalıdır. Namizədlərə həmçinin məlumatı göndərərkən tam şəkildə adlarını və əlaqə məlumatlarını daxil etmələri tövsiyə olunur.

Namizədlər elanla və müraciətlə bağlı yarana biləcək suallarını rashad.aliyev@un.org elektron poçt ünvanına göndərə bilərlər.

**Seçim prosesi**

BMT İHAK namizədlərin seçimini iki mərhələdə həyata keçirəcək və yalnız hər iki mərhələdən keçən namizədlərlə müqavilə bağlanacaq:

- **1-ci mərhələ - İlkin seçim**: İlkin seçim **unic-baku@un.org** elektron poçt ünvanına daxil olmuş müraciətlər arasında aparılacaq. İlkin seçim ərizəçilərin elanda qeyd edilmiş meyarlara uyğunluğu, minimum təcrübə tələbləri və təqdim edilmiş maraq məktubları və CV-lər əsasında aparılacaq. İlkin seçim layihənin qiymətləndirmə komitəsinin rəyi əsasında BMT İHAK tərəfindən həyata keçiriləcək;

- **2-ci mərhələ - Inspira portalında yekun müraciət və seçim**: İlkin mərhələdə seçilmiş namizədlərdən məsləhət xidmətinə müraciətlərini BMT-nin insan resursları portalı olanı İnspira portalında tamamlamaları tələb olunacaq. Bu məqsədlə, İnspira portalında profili olmayan namizədlərdən ilk olaraq həmin portalda qeydiyyatdan keçmələri və məsləhət xidmətinə müraciət etmələri tələb olunacaq (İnspira'da müraciəti tamamlamaq üçün namizədlərdən həmin portalda bir neçə bölmədən ibarət ərizə formasını doldurub təqdim etmələri tələb oluncaq. Həmin ərizə formasına təhsil, təcrübə və müvafiq sahədə bilik və bacarıqlara dair məlumat daxil ediləcək).

  **İlkin mərhələdən keçmiş, lakin İnspira portalında ərizələrini təqdim etməyən namizədlərlə müqavilə bağlanmayacaq**.

**Məsləhət xidməti üçün nəzərdə tutulan büdcə:**

Məsləhət xidməti üçün ümumi büdcə 5,280 ABŞ dollarını keçməməlidir.

Ödəniş iki hissədə ödəniləcək: İlkin ödəniş (30%) məsləhətçi ilə müqavilə bağlandıqdan və məsləhətçi tərəfindən iş planı təqdim edildikdən sonra ödəniləcək. İkinci və yekun ödəniş (70%) alternativ hesabat yekunlaşdırıldıqdan və həyata keçirilmiş fəaliyyətlərə dair yekun hesabat BMT İHAK-a təqdim edildikdən sonra ödəniləcək.

**Xidmətin müddəti:** Elanda qeyd edilən bütün işlər 15 iyun 2024-cü il tarixənədək tamamlanmalıdır.